# Müstəqil Azərbaycan dövlətinin ilk diplomat xanımı

Eleonora xanım ruhun şad olsun!

21 yanvar 2019-cu il Azərbaycan televiziyasının axşam xəbərlərində verilən məlumat məni olduqca sarsıtdı və kədərləndirdi. Bu acı xəbər məni apardı Fransanın paytaxtı Paris şəhərinə. Siz 2001-ci il iyunun 25-də saat 21:07 dəqiqədə mənim ev telefonuma (92-88-55) zəng edərək dediniz: "Əsədulla müəllim, Sizinlə Azərbaycanın Fransadakı səfiri Eleonara xanım Hüseynova danışır. Fransanın İnsan paleontologiyası institutunun direktoru, Avropa arxeoloji tədqiqatlar mərkəzinin rəhbəri, Parisin İnsan muzeyinin direktoru dünya şöhrətli Anri dö Lümey və onun həyat yoldaşı dünya şöhrətli professor Maria Antuanetta dö Lümley və 37 Avropa alimləri sənin Parisə gəlməyini gözləyir. Çünki iyulun 1-3 də Fransanın cənubunda yerləşən, Parisin 850 km-də yerləşən Avropa arxeoloji tədqiqatlar mərkəzində İntas-2000 beynəlxalq proqramı ilə əlaqədar təsdiq olunma mərasimi keçiriləcəkdir. Sənin gəlməyin haqqında məlumat onlara daxil olmadığına görə Professor Lümley və digərləri çox narahatdır. Professor Anri dö Lümley hətta Sizi təyyarə meydanında qarşılayacaq şəxsləri də müəyyən edib. Sən isə nədənsə cavabı gecikdirmisən. Buna görə Lümey narahatdır." Mən Sizə dedim ki, Eleonora xanım narahat olmayın texniki səbəblər var idi onlar həll olundu mən İnşallah 2001-ci il iyulun 1-də Parisin Orli təyyarə meydanına İstanbuldan gələcəyəm və həmin təsdiq olma mərasimində iştirak edəcəyəm. Eleonara xanım bu məlumatdan hədsiz dərəcədə sevindi və dedi: "Mən xoşbəxtəm ki Azərbaycan alimi Fransanın paytaxtı Parisdə dünya şöhrətli paleolit düşərgələri olan Azıx, Tağlar və Qazma qədim insan məskənlərindən tapılmış arxeoloji, paleontoloji, paleoantropoloji, geomorfoloji tapıntıları tədqiq edəcəksiniz".

2001-ci il iyulun 1-də saat 17:00-da Bakıdan İstanbula, İstanbuldan Parisə qalxan təyyarə 19:30 dəqiqədə təyyarə Parisin Orli təyyarə meydanına endi. Professor Nikolas Klaret və Elizabeta xanım məni Janna Dark otelinə yerləşdirdilər. Bundan bir neçə saat sonra Sizin xahişinizlə Azərbaycanın Fransadakı səfiri Əsgər Əliyev otelin telefonuna mənə zəng açaraq dedi. "Əsədulla müəllim biz hər ikimiz fəxr edirik ki, Siz Parisdə Azərbaycan arxeologiya elminin və Qarabağın paleolit düşərgələrini arxeoloji mədəniyyətləri haqqında məruzə edəcək və 7 Avropa ölkəsinin alimləri ilə birlikdə tədqiqat işləri aparacaqsınız". 2001-ci il iyulun 3-də səhər saat 10:00-da mən Eleonora xanımın xidməti maşınında Janna Dark otelinə gəlib Sizinlə birlikdə səfirliyə gedib, Eleonara xanımla görüşümüz olacaq. Sizdən Fransada apardığınız arxeoloji işlər və konfransın proqramı haqqında müsahibə alıb Azərtaca göndərəcəm ki, çap olunsun.

2001-ci il iyulun 2-də Əsgər müəllim dediyi vaxta otelə gələrək birlikdə səfirliyə getdik (şəkil 1). Səfirlikdə mən Eleonara xanıma elmi tədqiqat işləri haqqında geniş məlumat verdim. Həmin məlumatı Əsgər Əliyev Azərbaycanın teleqraf agentliyinə göndərərək çap etdirdi.

2001-ci il iyulun 3-də mən Parisdən 850 km aralıda yerləşən Totaval şəhərində olan Avropa arxeoloji tədqiqat mərkəzində beynəlxalq konfransda və Kondel-Araqo paleolit düşərgəsində aparılan arxeoloji qazıntılarda iştirak etmək üçün getdim. Orada proqrama uyğun olaraq Azıx, Tağlar və Qazma paleolit düşərgələrindən tapılmış ayrı-ayrı arxeoloji mədəniyyətlərə aid maddi mədəniyyət qalıqları haqqında məruzə etdim və İNTAS-2000 proqramı üzrə məni kordinator təyin etdilər.

2001-ci il iyulun 5 də Totavel şəhərindən Paris şəhərinə gəlib oradakı beynəlxalq konfransın və aparılan arxeoloji qazıntılardan əldə edilmiş nəticələr barədə Sizə və Əsgər Əliyevə məlumat verdim. Bu məlumatdan Siz həddən dərəcədə sevindiniz və dediniz: "Əsədulla müəllim mən burada səfirəm. Sənin getdiyin Kənson, Perpinyan, Totavel və İspaniyanın Barselona şəhərlərini görməmişəm. Gör Sizi Avropa professorları necə qiymətləndirir ki, həmin şəhərlərə və konfransa dəvət edirlər. Bu sözlər mənim bu gün də yadımdadır. Məhz buna görə Siz mənim beynimin kompüterinə qızıl hərflərlə yazılmısınız. Sizi unutmaq olarmı? Sizin dəfn mərasiminizdə iştirak etmək nədənsə mənə qismət olmadı. Buna çox heyfləndim. Eybi yoxdur bunun müqabilində Siz mənim 8-ci kitabım olan "Qarabağ: ulu vətənimiz" adlı bu yaxınlarda çapdan çıxacaq kitabımın qəhrəmanına çevrildiniz.



*Azərbaycanın Fransadakı səfiri Eleonora Hüseynova və professor Əsədulla Cəfərov. Paris, Azərbaycan səfirliyi. 25 iyul 2001-ci il.*

Eleonara xanım! Mənim əldə etdiyim elmi nailiyyətlərdə xüsusilə Azərbaycan qədim sivilizasiya mərkəzlərindən biri olan "Qarabağ ərazilərində qədim insanların məskunlaşması", "Azıx paleolit düşərgəsi", "Azərbaycanın ilk sakinləri", "Qarabağın paleolit düşərgələri", və "Miqrasiya prosesi" adlı əsərlərimdə Sizin də payınız var. Siz həyatda 72 il yaşadınız. Mən hesab edirəm ki, Sizin Avropada apardığınız diplomatik fəaliyyət nəticəsində Azərbaycan dövlətinin, xalqının mədəniyyətinin daha yüksək səviyyəyə qalxması üçün sərf etdiyiniz zəhmət və nailiyyətlər əbədi yaşayacaqdır!

Allah sizə qəni-qəni rəhmət eləsin. Qəbriniz nurla dolsun.

*Əsədulla CSSFSSROV,*
*AMEA Arxeologiya və Etnoqrafiya institutunun*
*Daş dövrü arxeologiyası şöbəsinin rəhbəri,*
*t.e.d., professor.*
*Mob: (050) 358-91-55*